**Mövzu 4. İsveç, Norveç və Finlandiya dövlətlərində beynəlxalq turizmin vəziyyəti.**

Plan.

1. İsveçin coğrafi mövqeyi, təbii iqlim şəraiti və əsas turizm bölgələri.
2. İsveçin əsas turizm bölgələrinin xarakteristikası.
3. Norveçin coğrafi mövqeyi, iqlim şəraiti və əsas turizm bölgələri.
4. Norveçin turizm bölgələrinin xarakteristikası.
5. Finlandiyanın coğrafi mövqeyi, təbii iqlim şəraiti və əsas turizm bölgələri.
6. Finlandiyanın əsas turizm mərkəzləri və bölgələrinin qısa xarkteristikası.

1.İsveçin coğrafi mövqeyi, təbii iqlim şəraiti və əsas turizm bölgələri.

Şimali Avropada, Skandinaviya yarımadasında yerləşmiş İsveç qərbdə və şimalda Norveç, şimal-şərqdə Finlandiya dövlətlərinin əraziləri ilə həmsərhəddir. Şərqdə Baltik dənizi və Botnik körəzi, cənub-qərbdə Kattoqat və Skagerrak boğazları ilə əhatə olunur. Eresunn boğazı İsveçi Danimarkaya məxsus Zaland adasından ayırır.Baltik dənizindəki Qotland və Aland adaları, həmçinin sahildən bir qədər aralı kiçik adalar da İsveçə aiddir. Ölkənin şimal-qərbində yerləşən Skandinaviya dağlarının İsveçə aid ən yüksək dağ zirvəsi Kebnekaysedir (2123 m).

İsveç ərazisinin yarıdan çoxu meşəlikdir. Bu isə dövlətin ən qiymətli təbii sərvəti hesab olunur.

İsveçdə müxtəlif hündürlükdə yerləşən təxminən yüz min göl vardır. Göllərin əksəryəti bir-biri ilə çylar vasitəsi ilə birləşərək göllər şəbəkəsi yaradırlar. Bir sıra göllər bir-biri ilə gəmiçilik üçün yararlı kanallarla birləşdirilib. Uzunluğu 50 km-dən artıq olan kanal vasitəsi ilə Stokolmdan Getoborqa qədər gəmilərlə səyahət etmək mümkündür.

Ölkənin əsas çayları Kaliks-Elv, Şellefte-Elv, Ume-Elv və Tarne-Elv hesab edilir. Vettern və Venern iri gölləridir.

Geterborq, Malme iri şəhərlər, Evle, Kalmar, Malme, Stokholm, Helsinqbord isə dəniz limanlarıdır.

İsveçin iqlimi mülayimdir,qış ayları şimalda şaxtalı və qarlı, cənubda qısa və yumşaq keçir. Qış və yay aylarında turizm üçün əlverişli bölgə ölkənin cənubudur.

Ölkənin rəsmi adı-İsveç Krallığıdır. Dövlət quruluşuna görə-konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə İsveç 25 lenə (quberniyaya) bölünür. Dövlət başçısı-kraldır. Ali idarəedici hakimiyyət Nazirlər kabinəsinə rəhbərlik edən Baş nazirə məxsusdur. Qanunvericilik hakimiyyətini bir palatalı Riksdaq yerinə yetirir. 6 iyun-İsveç bayrağı günü Milli bayram kimi qeyd edilir.

İsveçin coğrafi mövqeyi, təbii iqlim şəraiti, tarixi memarlıq abidələri turizm marağı yaratdığından ölkədə turizm bölgələrini formalaşdırmışdır. İsveçin əsas

turizm bölgələri-Stokolm, Botnik körfəzi və Baltik dənizi sahilləri,Geteborq və ölkənin qərb sahilləri, Qotland adası, həmçinin Dalarna və Laplandiya tarixi-coğrafi vilayətləridir.

## 2.İsveçin əsas turizm bölgələrinin xarakteristikası.

İsveçin paytaxtı Stokolm əsas turizm mərkəzi olmaqla Botnik körəzinin qayalıq sahilində, bir-biri ilə körpülərlə birləşən çoxsaylı adalarda yerləşir. Şəhər iri beynəlxalq dəniz, dəmir yolu və hava magistralları qovşağındadır. Stokolm tarixi-memarlıq abidələri, muzeyləri, teatrları, rəsm qalereyaları ilə çoxsaylı turistlərin diqqətini cəlb edir. Stokolmun tarixi özəyi olan Staden adası şəhərin digər rayonları ilə körpülər vasitəsi ilə birləşir. Buradakı Kral sarayı turistlərdə maraq doğurur. Byrada tikintisi 1923-cü ildə başa çatmış Ratuşa binası, Kral srayı, XIII əsrə aid Böyük kilsə, Cəngavər evi, Birja binası, Milli muzey, Opera teatrının binası, Kral stadionu, Konsert evi də şəhərin görməli yerlərindən biri hesab edilir. Stokolmda İsveç Elmlər Akademiyası, Mühəndis Elmləri Akademiyası, Universitet, Nobel İnstitutu və digər elm-tədris müəssisələri yerləşir. Kral kitabxanasında 1 milyondan artıq kitab nüsxəsi toplanıb istifadə edilir.

Dövlət Dəniz tarixi, Milli, Şimal, Tarix- etnoqrafiya muzeyləri daha diqqətəla-yiqdir. Açıq səma altında yerləşən və müxtəlif dövrlərə aid İsveç isveç yaşayış tikililəri toplanmış Sansen muzeyi və Millesin heykəlləri toplusundan ibarət olan Millesqorden muzeyləri xüsusilə diqqəti cəlb edir.Kral opera və dram teatrları Stokolmun məşhur teatrlarındandır.

Stokolmun yerləşdiyi yüzlərlə kiçik adaları arasında Yusteryo və Urnyo adaları turistlər arasında daha çox məşhurdur. Bu adalarda çoxsaylı yay tipli evlər və komalar tikilmişdir. Yay aylarında ətraf çəmənliklərdə buraya gələn turistlər tərəfindən çoxsaylı turist çadırları qurulur.

Stokolmdan 70 km şimalda qədim mədəniyyət mərkəzi- Upsala şəhəri XIII-XV əsrlərdə inşa edilmiş kilsəsi, əsası 1477-ci ildə qoyulmuş universiteti və XVIII əsrin görkəmli təbiətşunası Karl Linneyin muzeyi ilə diqqəti cəlb edir.

Daxili turizm zonası hesab edilən Botnik körəzi və Baltik Baltik dənizi sahilləri qumlu çimərlikləri, yerləşdirmə vasitələri, qida müəssisələri, əyləncə mərkəzləri və idman tikililəri ilə təchiz olunmuş turizm bölgəsidir. Botnik körəzi sahillərində çoxsaylı kurortlar yerləşir. Evle, Ala, Hudiksvall, Sundsvall, Kernosand kurortları xüsusilə fərqlənirlər. Botnik dənizi sahillərində Okselosund, Qamlebu, Karbskruna kimi məşhur kurortları yerləşir.

Geteborq xarici turistlərin toplaşdığı ikinci böyük turizm mərkəzidir. Şəhər çoxsaylı muzey, teatr, konsert zalları ilə turistləri özünə cəlb edir. Ölkənin qərb sahillərində çoxsaylı dənizkənarı kurortlar əsasən daxili turistlərə xidmət edir. Geteborqdan cənuba doğru Malme şəhərinədək olan ərazidə Varberq, Falkenberq,

Holmstad, Bostad, Engelholm, Helsinkbord, cənubda isə Gkanor, Falsterbu, Trelleborq, İstad kurortları yerləşir.

Geteborqdan şimala doğru , Stromstada qədər təxminən 150 km ərazidə Geteborq-Bohus ümumi adı altında tanınmış sahil kurortları və kurort adaları yerləşir.

Daxili və xarici turizmin mühüm mərkəzlərindən biri olan Qotland adası sabit iqlimi, mənzərəli limanları və çimərlikləri ilə tanınır. Adanın əsas şəhəri- Visbüddə orta əsrlərə aid divarlar, çoxlu kilsə qalıqları buranın möhtəşəm keçmişindən xəbər verir. Visbü XI-XIII əsrlərdə Novqorodla Qərbi Avropa şəhərləri arasında su yolunun üzərində olduğu üçün Baltik dənizində mühüm dəniz ticarəti mərkəzi kimi inkişaf etmişdir.

Stokolmdan şimal qərbə doğru daha bir daxili turizm bölgəsi olan Dalarna xizək yürüşləri üçün çox əlverişlidir. Dalarna-özünəməxsus mədəniyyət, qədim sənətkarlıq və əski adət-ənənələr diyarıdır. Serna, Selen, xüsusilə də Silyan gölü ətrafındakı Mura, Retvik, Leksand kurortları istirahət mərkəzi kimi seçilir.

Laplandiya turizm bölgəsi gözəl təbiəti və aborigenlərin özünəməxsus mədəniyyəti ilə daxili və xarici turistləri özünə cəlb edir.

### 3.Norveçin coğrafi mövqeyi, iqlim şəraiti və əsas turizm bölgələri.

Şimali Avropada yerləşən Norveç şərqdə İsveç, şimal-şərqdə Finlandiya və Rusiya dovlətlərinin əraziləri ilə həmsərhəddir. Qərbdə Atlantik okeanına, şimalda Barens, cənubda isə Şimal dənizinə çıxışı var. Şpitbergen arxipelaqı, Yan-Mayen və ölkəyə yaxın bir sıra adalar da Norveçə məxsusdur.

Norveçin bir cox bölgələrində əzəmətli sıldırım qayalar sahil boyu şaquli divarlar kimi uzanır və ya dərin oyuqlar yaradaraq sanki dəniz üzərində asılı vəziyyətdə qalırlar. Bu cür qayalıq sahillərin önündən yalnız kiçik gəmilər və qayıqlar keçə bilir. Dəniz sahilinə yaxın ərazilərdə çoxsaylı sahil adaları, sualtı qayalar və adsız kiçik adalar səthə çıxır.

Ölkənin qərb sahilləri uzun və dərin fyordlarla ( Norveç mənşəli söz olub-dağlıq sahildə dar girintili- çıxıntılı körəzlər) parçalanmışdır.

Norveçin ən böyük fyordu, uzunluğu 200 km-dən çox olan Soqnefyorddur. Norveç dənizinin fyordları dəniz tərəfindən çoxsaylı adalarla əhatə olunduğundan fırtına, külək və dəniz cərəyanları dalğalarından yaxşı qorunur.

Norveç ərazisinin 70%-ni təşkil edən orta yüksəklikli Skandinaviviya dağları cənub-qərbdən şimal-şərqə doğru bütün ölkə boyu uzanır. Ölkənin ən yüksək zirvəsi Qalhopiggen dağıdır (2469m).

Norveçdə çoxlu göllər və iti axan astanalı və şəlaləli dağ çayları vardır. Şəlalələr Norveç çaylarına qeyri adi gözəllik verir. Əsas çayları- Logen, Beqna və Qlamma hesab edilir.

Sahilə doğru gələn mülayim dəniz cərəyanı və daim əsən mülayim qərb və cənub dəniz küləkləri Norveç iqliminə öz təsirini göstərir. Şimal en dairəsi istiqamətində uzanmasına baxmayaraq Norveç Şimali Avropanın ən isti ölkəsidir. Oslada və şimal sahillərində yanvarın orta temperaturu mənfi 2-dən mənfi 4 dərəcəyədək dəyişir. Yay fəsli isti keçmir. Ölkənin ancaq cənub-qərbində iyulin orta temperaturu müsbət 12, Oslo ətrafında 17, bəzən 25, hətta 30 dərəcəyə çatır.

Stavangerdən Namsus qədər olan sahil ərazidə isə orta aylıq temperatur il boyu mənfi olmur. Lakin elə rayonlar var ki, qış 7 ay davam edir. Bəzi günlərdə temperatur mənfi 50 dərəcəyə çatır.

Bergen, Tronheym, Stavanger Norveçin iri şəhərləri, Kristiansann, Berken, Oslo, Tronheym isə əsas portlarıdır.

Ölkənin rəsmi adı- Norveç Krallığıdır. Dövlət qurulyşu Konstitusiyalı monarxiyadır. İcraedici hakimiyyət Dövlət şurasına rəhbərlik edən Baş nazirin əlindədir.Qanunverici hakimiyyət iki palatalı parlamentə məxsusdur. Norveç 26 oktyabr 1950-ci ildə İsveçdən ayrılaraq müstəqillik qazanmışdır. 17 may- Konstitusiya günü (1814) Milli bayrm kimi qeyd olunur.

Norveçin qayalı sahilləri, mənzərəli fyordları, Şimalın toxunulmamış təbiəti, tarixi-memarlıq abidələri xarici turistləri özünə cəlb edir. Oslo, Myosa göllər zonası və Qudbransdal, Bergen və ölkənin cənub-qərb sahilləri, Tronheym və Norveç sahilləri, fyordlar və ölkənin şimal bölgələri turistlərin toplaşdığı əsas mərkəzlərdir.

4. Norveçin turizm bölgələrinin xarakteristikası.

Norveçdə xarici turistlərin maraq göstərdiyi əsas mərkəzlərdən biri Oslo hesab edilir. Buranın memarlıq abidələrindən Ratuşa binası, XIV əsrdə salınmış Kral qəsri, XVII əsrdə inşası başa çatmış Kafedral kilsə, muzeylərdən Taxta tikililər muzeyi, Milli bədii qalereya, Vikinq gəmiləri muzeyi, Kon-Tiki muzeyi, Norveç Texnika muzeyi, Norveç Dəniz muzeyi diqqəti cəlb edir.

Şəhərdə Norveç Elmlər Akademiyası, 1,5 milyon cilidli kitabxanası olan Universitet fəaliyyət göstərir.

Yay mövsümündə turistlər Oslofyord sahillərinə, qışda isə Oslo ətrafındakı Sunvollen və Helmenkollen rayonlarına xizək gəzintisinə çıxırlar. İsti yay günlərində isə əhali Skagerrak boğazı yaxınlığında yerləşən sahil kurortlarına ,əsasən Lavrik kurortuna gəlirlər. Oslodan Lavrikə gedən yolun üzərində Norveçin ən qədim şəhəri (871-ci il) Tönsberq yerləşir. Buradakı şəhər qala divarlarının qalıqları və bir neçə muzey turistlərin diqqətini cəlb edir.

Myosa gölünün mənzərəli sahilləri, çimərlikləri, dağlardan enən yamaclarının dağ xizək idmanı üçün əlverişli olması bu bölgənin daxili turizm mərkəzinə çevrilməsinə səbəb olmuşdur.

Lillehammer,Hamar, Yevin və digər kurort mərkəzlərində rahat mehmanxanaların , müxtəlif idman avdanlıqlrının olması tyrizmin qış və yay növlərinin təşkilinə əlverişli imkan yaradır.

Logenin çayının Myosa gölünə töküldüyü ərazidə Qudbrandal turizm bölgəsi qeyri-adi gözəlliyi ilə seçilir. Burada Tretten, Vinsstra, Dombos və digər qış və yay kurortları fəaliyyət göstərir.

1070-ci ildə əsasə qoyulmuş Bergen şəhəri öz tarixi-memarlıq abidələri və muzeyləri ilə xarici turistlərin diqqətini cəlb edir. Orta əsr memarlıq abidələri arasında Qala (XIII əsr), Müqəddəs Məryəm kilsəsi (XII əsr), Dəniz portu, Balıq bazarı, Balıqçılıq muzeyi, Teatr muzeyi turistlərin diqqətini cəlb edir.Ölkənin cənub-qərb sahillərində xarici turistlərin qəbulu üzrə əsas mərkəz Stavenger şəhəridir. Bu şəhər orta əsr memarlıq abidələri, o cümlədən XII əsrdə tikilmiş kilsə, XIII əsr abbatlığı, muzey və rəsm qalereyaları ilə tanınır.

Tronheymin müasir binaları, geniş küçələri, orta əsr memarlıq abidələri ilə vəhdət təşkil edir. Orta əsr abidələrindən XI əsr kilsəsi, XII əsr arxiyepiskop sarayı, XVII əsr şəhər qalası xüsusilə seçilir.

Xariçi turistlər Kristiansunn və Malme dəniz sahili şəhərlərinə daha çox meyl edirlər. Kristiansunn şəhəri üç adada yerləşir və körpülər vasitəsilə birləçir. Malmeni “qızıl güllər şəhəri” adlandırırlar. Şəhərdə görməli yerlərdən ən maraqlısı açıq səma altında yerləşən Qədim evlər muzeyidir.

Xarici və daxili turistlərin toplaşdığı mərkəzlərdən biri də Fyordlar bölgəsidir. Ən mənzərəli fyord sahilləri alma bağları ilə örtülü olan Hardangerdir. Hardngerdin mənzərəli sahillərində  və ona bitişik  dağlıq ərazidə Voss, Ulvik, Hinsarvik, Olvik kimi müasir tələbatlara cvab verən daö-idaman kurortları yerləşir.

Ölkənin ən uzun fyordu olan Soqnefyordun dərinliyi 1245 m, eni 1,5-6 km, sıldırım qayalı sahillərinin hündürlüyü isə 1500 m-ə çatır. Bu fyordun sahillərində və ona bitişik ərazidə tanınmış  Balestrann və Laykanger kurortları yerləşir.

Sərt təbiəti ilə cəlb edici olmaqla yanaşı, dağ-xizək idmanı və balıq ovu üçün əlverişli olan şimal bölgələri xarici və daxili turistlərin toplaşdığı əsas mərkəzlərdir. Bunlar Budö, Narvik, Hammerfest, Kirkenes kimi liman şəhərləridir.

İri turist regionlarından biri də Şərqi Vadi meşə turizm bölgəsidir. Norveçin mehmanxana biznesinin yaşayış fondunun 30%-ə qədəri burada cəmləşmişdir. Yaşayış fondunun 10%-i isə digər məşhur turist regionunda- Bergen şəhəri ətrafındadır. Tronheym şəhərində isə ölkənin yaşayış fondunun 7,4%-i yerləşir.

5. Finlandiyanın coğrafi mövqeyi, təbii iqlim şəraiti və əsas turizm bölgələri.

Şimali Avropada yerləşən Finlandiya Rusiya, Norveç, və İsveçlə həmsərhəddir. Qərbdə Fin körfəzinə çıxışı var. Ölkə ərazisinin üçdə biri Qütb

dairəsi hüdudlarındadır. Ölkənin relyefində təpəlik ərazilər üstünlük təəşkil edir.Ucqar şimalda əraziyə Skandinaviya dağları daxil olur.

Finlandiyanın meşə, göl və bataqlıqlar ölkəsi adlandırırlar. Ölkə ərazisinin 70%-i meşəlikdir. 60 mindən artıq olan göllər ölkə ərazisinin təxminən onda birini tutur.

Pyaynne, Sayma, İnori, Pielenen ən iri gölləridir. Göllər suyunun şəffaflığı və bol balıq ehtiyatı ilə seçilirlər. Torno, Kemi və Qulu ölkənin əsas çaylarıdır.

Atlantik okeanının Holfstrim mülayim cərəyanı ölkənin kontinental iqlimini bir qədər yumşaldır. Skandinaviya dağları Finlandiyanı Arktikanın soyuq küləklərindən qoruyur. Tampere, Espoo ( Helsinkinin peyk şəhəri), Turku, Vantaa ( Helsinkinin peyk şəhəri) ölkənin iri şəhərləridir. Kotka, Helsinki, Turku isə əsas dəniz limanlarıdır. Finlandiya 12 quberniyaya ( lyaniyə) bölünür. Finlandiyanın tərkibinə daxil olan Aland adaları xüsusi siyasi- inzibati ərazi vahidi statusuna malikdir. Finlandiya parlamentli respublikadır. Ali icra hakimiyyəti prezidentə və Baş Nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan-bir palatalı parlamentdir. 6 oktyabr –Müstəqillik günu Milli bayram kumi qeyd edilir. Rusiyanın tərkibində Finlandiya Böyük Knyazlığı kimi qalan bu ölkəyə 6 oktyabr 1917-ci ildə müstəqillik verilmişdir.

Finlandiya əsas turizm yollarından kənarda qalan ölkələrdəndir. Ona görə də 20-25 il öncə bu ölkənin turizm ehtiyatları ,təbiətin gözəlliyi və özünəməxsus xüsusiyyətləri haqqında informasiya çox bəsit idi.

Finlandiyanın turizm mərkəzləri Helsinki, Turku, Tamperi, Lahti və Hyamenminnadır. Turistlərin əsas toplanış bölgələri- Sama gölü və Laplandiya tarixi-coğrafi əyalətidir.

6. Finlandiyanın əsas turizm mərkəzləri və bölgələrinin qısa xarkteristikası.

Helsinki Fin körfəzinin qayalıq sahillərində yerləşən , mənzərəli , müasir və nisbətən cavan şəhər olmaqla turizm mərkəzidir. Bu şəhər memarlıq abidələri, muzeyləri və digər görməli yerləri ilə turistlərdə maraq yaradır. Mərmər sütunlu Parlament binası, Prezident sarayı, Müqəddəs Nikolay kilsəsi, Olimpiya stadionu və s.belə görməli yerlərdən hesab olunur. Muzeylərdən fin, rus və Qərbi Avropa incəsənətinin müasir nümunələrinin toplandığı Atensum Bədii muzeyi, Semasari adasında acıq səma altında yerləşən Tarix-etnoqrafiya və memarlıq-məişət muzeyi, Siomenlinin Qala muzeyini qeyd etmək olar. Helsinkidə bir neçə teatr, o cümlədən Fin opera teatrı, Fin milli və fəhlə teatrları, dahi fin bəstəkarı Yan Sibeliusun adını daşıyan konservatoriya fəaliyyət göstərir. Hər il yayda burada “ Sibelius həftəsi ” beynəlxalq musiqi festivalı keçirilir.

Əhalinin sayına görə ölkənin ikinci böyük şəhəri olan Tampere turizm mərkəzi olmaqla memarlıq abidələri və muzeyləri ilə turistlərin diqqətini cəlb edir.

Lahti şəhəri yeni və sürətli inkişaf edən turizm mərkəzidir. Bu mərkəz müasir tikililəri, muzey və rəsm qalereyalarının zəngin ekspozisiyası ( latın mənşəli söz olub –şərhetmə, göstərmə mənalarını bildirir) ilə turistləri cəlb edir.

Ölkənin turizm mərkəzlərindən biri də Turku şəhəridir. Turku qədim şəhər olmaqla muzeyləri, geniş meydanları, parkları, tarixi- memarlıq abidələri ilə turistlərin marağına səbəb olur. Ən maradlı memarlıq abidəsi XIII əsrdə tikilən kilsədir.

Dahi Fin bəstəkarı Sibeliusun vətəni olan Hyamenli şəhəri də turistlərin maraq göstərdiyi mərkəzlərdən biridir. Turistlərə Sibeliusun ev muzeyi, XIII əsr qəsri, Ratuşa binası nümayiş etdirilir. Şəhər kənarında Aulanko milli parkı yerləşir.

Ölkənin ən böyük və gözəl gölü olan Saymanın sahillərinə Finlandiyanın özündən minlərlə turist istirahətə gəlir.Sayma gölü və onun yaxınlığındakı göllərin sahillərində Lappenranta, Lauritsala, İmatra kimi tanınmış kurortlar yerləşir.

Finlandiyanın tanınmış turizm mərkəzlərindən biri də Laplandiyadır. Qış mövsümündə turistlər bu əraziyə xizək yürüşlərində iştirak etmək üçün gəlirlər. Yay mövsümündə isə Laplandiya şimal təbiətin və balıq ovunu sevənləri cəlb edir.

Finlandiyaya gələn xarici turistlər paytaxt Helsinkiyə toplaşırlar. Daxili turistlərin üçdə biri fin göllərinin sahillərində istirahətə üstünlük verirlər. Fin turistlərinin bir qismi şimaldakı ərazilərə, daha dəqiq desək Laplandiyaya gedirlər.

Fin turistlərinin əksər hissəsi Skandinaviya ölkələrinə səyahət edirlər. Bundan əlavə ölkədən gedən turistlər İsveç, Estonoya, Rusiya, Aralıq dənizi sahilləri, Kanar adaları, həmçinin Qərbi Avropaya səfər etməyə üstünlük verirlər. Finlandiyaya gələn xarici turistlər arasında Almaniya, Rusiya, ABŞ və qonşu Skandinaviy ölkələrindən gələnlər üstünlük təşkil edirlər.